

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 26 iyun 2026-cı il | №43 (3045) | https://mod.gov.az | Qiyməti 30 qəpik


## Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına “general-mayor” ali hərbi rütbəsinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçularına “general-mayor” ali hərbi rütbəsi verilsin:

polkovnik Rəsul Rasim oğlu Əliyevə
polkovnik Elçin Rəhim oğlu Abdullayevə
polkovnik Azər Əfrayıl oğlu Heybətliyə
polkovnik Gülməmməd Tofiq oğlu Rzayevə
polkovnik Ruslan Dünyaməddin oğlu Ağasiyevə.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 25 iyun 2026-cı il

## Prezident İlham Əliyevin sosial media hesablarında Silahlı Qüvvələr Günü ilə bağlı paylaşım edilib




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sosial media hesablarında 26 İyun - Silahlı Qüvvələr Günü ilə bağlı foto və video paylaşımları edilib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: “Yaşasın Azərbaycan! Yaşasın Azərbaycan Silahlı Qüvvələri! Eşq olsun qüdrətli Azərbaycan Ordusuna!”.

## Birinci vitse-prezident Mehriban Əliyeva Silahlı Qüvvələr Günü münasibətilə paylaşım edib




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial media hesablarında 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: “Xalqımıza Zəfər sevincini bəxş etmiş Ordumuzla qürur duyuruq! Allah Vətən uğrunda qəhrəmancasına həlak olmuş şəhidlərimizə rəhmət eləsin! Uca Tanrı xalqımızı və doğma Azərbaycanımızı qorusun!”.

## Müzəffər Komandanım, qalib ordum, azad yurdum var!

**Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev:**

*“Ordu mövzusu, ordunun yaranması, formalaşması bizim bütün həyatımızda əsas mövzulardan biri olmalıdır, gənclərin orduda xidmət etmək üçün tərbiyələndirilməsi bizim əsas vəzifələrimizdən biri olmalıdır və bu vəzifələri biz ardıcıl surətdə həyata keçirməliyik... Xalqla ordunun birliyi həm xalqın qüdrətini, həm də ordunu daha da qüvvətli edir. Ona görə də qarşımızda duran əsas vəzifələrdən biri xalqla ordunun sağlam mənəvi birliyini təmin etməkdən ibarətdir”.*



Xalq şairi Zəlimxan Yaqub vaxtilə Azərbaycan əsgərinin və ordumuzun xalqımızın taleyində oynadığı müstəsna rolu belə ifadə etmişdir: “Ordum varsa, yurdum var”. Bu fikir sadəcə poetik bir deyim deyil, müstəqilliyimizin əsas qarantlarından biri olan ordumuza verilən dəyərin ifadəsi idi.

Bu gün həmin fikrin mənası daha da dərinləşib. Azərbaycan Ordusu öz gücünü və peşəkarlığını döyüş meydanında sübut etdi. 2016-cı ilin Aprel döyüşlərində, 2018-ci ilin Günnüt zəfərində, İkinci Qarabağ müharibəsində, ondan sonrakı uğurlu əməliyyatlarında və nəhayət, 2023-cü ilin 19-20 sentyabr tarixlərində həyata keçirilən, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunması ilə nəticələn antiterror əməliyyatında qazanılan Zəfərlər xalqımızın yaddaşına qızıl hərflərlə həkk olunub. Şəhidlərimizin qanı-canı, silahdaşlarımızın fədakarlığı və şücaəti nəticəsində üçrəngli bayrağımız azad edilmiş torpaqlarımızda qürurla dalğalanmaqdadır.

Məhz bunlara görə də bu gün xalq şairimizin məşhur kəlamını yeni dövrün reallıqları fonunda daha böyük qürurla səsləndirmək olar - Müzəffər Ali Baş Komandanım, tarixin ən çətin sınaqlarından şərəflə çıxmış qalib ordum, azad və firavan yurdum var!

**(Ardı 5-ci səhifədə)**

## Müdafiə Nazirliyinin şəhid olmuş hərbi qulluqçularının və mülki işçilərinin təltif edilməsi haqqında Azərbaycan Prezidenti Sərəncam imzalayıb

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və mülki işçilərinin təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalayıb.

Sərəncama əsasən, Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında iştirak edərək igidlik və mərdlik göstərmiş, hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirərək şəhid olmuş Azərbaycan Respublikası Müdafiə Nazirliyinin 6 nəfər hərbi qulluqçusu “Azərbaycan Bayrağı”, 8 nəfər hərbi qulluqçusu 3-cü dərəcəli “Rəşadət”, 1790 nəfər hərbi qulluqçusu və 2 nəfər mülki işçisi 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə ölümündən sonra təltif ediliblər.

**AZƏRTAC-ın materialları əsasında**

## Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

**3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə**

Fərəcov Təvəkkül Seyfulla oğlu – polkovnik
Məmmədov Kamil Sədiyar oğlu – polkovnik
Hüseynov Emil Əli oğlu – kapitan

**“Vətən uğrunda” medalı ilə**

Məmmədov Şahin Oruc oğlu – kontr-admiral
Abdullayev Tural Zakir oğlu – polkovnik
Məmmədov Rəşad Ramiz oğlu – 1-ci dərəcəli kapitan
Bəkirov Fərid Cahangir oğlu – polkovnik-leytenant
Hüseynov Elşən Yaşar oğlu – polkovnik-leytenant
İbrahimov Qadir Telman oğlu – polkovnik-leytenant
Məşiyev Nofəl Ərəstun oğlu – mayor
Hacıməmmədov Şirxan Şöhrət oğlu – baş gizir

**“Hərbi xidmətlərə görə” medalı ilə**

Əliyev Fərid Əlibaba oğlu – general-mayor
Abdullayev Xəyyam Vaqif oğlu – polkovnik
Babayev Rəşad Tahir oğlu – polkovnik
Cahangirov Cavanşir Əlisahib oğlu – polkovnik
Çobanov Roman Salman oğlu – tibb xidməti polkovniki
Əhmədov Fuad Məhəmmədağa oğlu – 1-ci dərəcəli kapitan
Əsgərov Əvəz Zəbirşah oğlu – polkovnik
Qənbərov Rəşad Müştaba oğlu – polkovnik
Mədətov İsmayıl Səfər oğlu – polkovnik
Rizvanov Səməndər Səməd oğlu – polkovnik
Rüstəmov Teyfur Çərkəz oğlu – polkovnik
Salayev Elçin Ələddin oğlu – polkovnik
Səfərov Anar Haqverdi oğlu – polkovnik
Vəliyev Gündüz İslam oğlu – polkovnik
Yaqubov Oruc İmran oğlu – polkovnik
Abdinov Taciəddin Akif oğlu – polkovnik-leytenant
Baqiri Abduləli Məhəmmədəli oğlu – polkovnik-leytenant
Cavadov Əsədulla Yusif oğlu – polkovnik-leytenant
Kərimov İlqar Vaqif oğlu – polkovnik-leytenant
Qasımov Emil Xadim oğlu – ədliyyə polkovnik-leytenantı
Mehdiyev Rüstəm Süleyman oğlu – polkovnik-leytenant
Məmmədov Zamir Maarif oğlu – polkovnik-leytenant
Süleymanlı Elçin Səlimxan oğlu – polkovnik-leytenant
Şahverdiyev Xəyyam İkram oğlu – polkovnik-leytenant
Zayıdov Əziz Tahir oğlu – polkovnik-leytenant
Əməşov Rövşən Məmmədağa oğlu – mayor
Hacıyev Kənan Kamil oğlu – mayor
Hüseynov Ramil İlham oğlu – mayor
Hüseynov Səbuhi Volodya oğlu – mayor
Məmmədov Əbil Alim oğlu – ədliyyə mayoru
Əkbərov Ceyhun İman oğlu – kapitan
Kavuzov Əhməd Mutalif oğlu – kapitan
Məmmədov Eldar Tapdıq oğlu – kapitan.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 25 iyun 2026-cı il

# Heydər Əliyev adına Hərbi İnstitutda növbəti buraxılış mərasimi keçirilib





İyunun 25-də Milli Müdafiə Universitetinin (MMU) tabeliyində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi İnstitut və Tibb Fakültəsinin məzunlarının növbəti buraxılışına həsr olunan təntənəli mərasim keçirilib.

Mərasimdə Müdafiə nazirliyinin rəhbərliyi, hərbi təhsil müəssisələrinin şəxsi heyəti, müəllimlər, məzunlar, valideynlər, eləcə də ictimaiyyət və media nümayəndələri iştirak ediblər.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin hərbi institutun ərazisində ucaldılan abidəsi, eləcə də institutun Vətən müharibəsində şəhid olan hərbi qulluqçularının Xatirə Kompleksi ziyarət olunub, qarşısına güllər düzülərək xatirələri dərin hörmətlə yad edilib.

Tədbirin başlanması ilə əlaqədar Heydər Əliyev adına Hərbi İnstitutun rektoru general-mayor Ümüdvar Quliyev müdafiə naziri general-polkovnik Zakir Həsənova məruzə etdikdən sonra institutun Döyüş bayrağı təntənəli surətdə sıra meydanına gətirilib.

Sonra xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Vətən uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Buraxılış mərasimində çıxış edən müdafiə naziri tədbir iştirakçılarını Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 108 illiyi münasibətilə təbrik edib, məzunlara Vətənimizin parlaq gələcəyi, ordumuzun qüdrətlənməsi naminə göstərəcəkləri şərəfli xidmətlərində uğurlar arzulayıb.




Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən kompleks islahatlardan danışan nazir bu islahatların ordumuzun peşəkar kadr potensialının artırılması istiqamətində mühüm rolu olduğunu vurğulayıb.

Hərbi qulluqçularımızın Vətən müharibəsi və digər uğurlu əməliyyatlar zamanı göstərdikləri qəhrəmanlıqlar, eləcə də hərbi institutun məzunlarının şücaəti xüsusi qeyd edilib.

Buraxılış mərasiminin planına uyğun olaraq müdafiə naziri hərbi təhsil müəssisələrini fərqlənmə ilə bitirən məzunlara diplom və qiymətli hədiyyələr təqdim edib.

Gənc zabitlər göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildirib, Vətənə, dövlətə və xalqa layiqincə xidmət edəcəklərinə söz veriblər.

Rəmzi yaş kötüklərinə xatirə lövhələri vurulduqdan sonra Heydər Əliyev adına Hərbi İnstitutun Döyüş bayrağının təhvili və qəbulu mərasimi keçirilib.

Hərbi orkestrin ifasında hərbi institutun marşı səsləndirilib, şəxsi heyətin tribuna önündən təntənəli keçidi olub.





## Müdafiə naziri: Bu gün məzun olan gənc zabitlərimiz Zəfərin məsuliyyətini və dəyərini dərindən dərk etməlidirlər

Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu siyasəti Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə yeni yüksəliş mərhələsinə qədəm qoyub. Azərbaycan Ordusu maddi-texniki təminatına, müasir silah və texnologiyalara, təchizatına, döyüş hazırlığına, şəxsi heyətin peşəkarlıq səviyyəsinə görə regionun ən güclü ordularından birinə çevrilib.

Ali Baş Komandanın "Bizim ordumuz bizim qürurumuzdur" fikirləri öz təsdiqini tapmış danılmaz həqiqətdir. Bu, dövlətimizin hərbi gücünün göstəricisi, Azərbaycan Ordusuna olan ali inamın təntənəli ifadəsidir.

AZƏRTAC xəbər verir ki, bunu müdafiə naziri general-polkovnik Zakir Həsənov Heydər Əliyev adına Hərbi İnstitutun və Hərbi Tibb fakültəsinin məzunlarının növbəti buraxılış mərasimində çıxışı zamanı deyib.



Bu il xalqımızın dövlətçilik tarixində mühüm yer tutan 44 günlük Vətən müharibəsində əldə edilmiş şanlı Zəfərin altıncı ilinin tamam olduğunu bildirən nazir həmin tarixi Qələbənin təkcə hərbi üstünlük deyil, milli birliyimizin, dövlətimizin, siyasi iradəsini və ordumuzun yüksək peşəkarlığının təntənəsi olduğunu deyib. Qeyd olunub ki, yenilməz Azərbaycan Ordusunun hər bir üzvü kimi, bu gün məzun olan gənc zabitlərimiz də həmin Zəfərin məsuliyyətini və dəyərini dərindən dərk etməlidirlər: "Biz müqəddəs Vətən uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsini daimi dərin ehtiram və minnətdarlıq hissi ilə yad edirik. Eyni zamanda, sağlamlığını itirməsinə baxmayaraq, Vətənə sədaqət nümunəsi göstərən müharibə əlillərinə və iştirakçılarına dərin minnətdarlığımızı bildiririk. Onların döyüş meydanında nümayiş etdirdikləri qəhrəmanlıq, sarsılmaz iradə, cəsarət və Vətən sevgisi gənc nəsil, xüsusilə bu gün leytenant rütbəsi alan məzunlarımız üçün əsl həyat məktəbi və örnəkdir.

Əziz valideynlər, siz öz övladlarınızla fəxr edə bilərsiniz. Seçdikləri zabit peşəsinə sahib olmaq böyük əzm və iradə tələb edir. Bu gün onların hərbi rütbə ilə təltif olunmaları sizin üçün qürur mənbəyidir. Sizə Vətənin keşiyində durmaq üçün yetişdirdiyiniz övladlara görə təşəkkürümü ifadə edirəm. İnanıram ki, onlar bütün addımlarında sizə və Vətənimiz Azərbaycana layiq olmağa çalışacaqlar.

Dəyərli zabitlər, siz Azərbaycan Ordusunun bu günü və sabahısınız. Hər biriniz xidmət yerinizdən asılı olmayaraq, öz sahənizin lideri olmalısınız. Siz gələcəyin rəisləri, komandirləri, hərbi rəhbərləri olacaqsınız. Hərbi Tibb fakültəsinin məzunları isə yalnız peşəkar hərbi həkimlər deyil, döyüşçünün həyatını qoruyan, onun sağlamlığının qayğısına qalan fədakar zabitlərdir. Zabitlərin yüksək səviyyədə hazırlanmasında Türk Silahlı Qüvvələrinin dəstəyini də qeyd etmək istəyirəm və təşəkkürümü bildirmək istəyirəm.

Bu gün məzunların arasında dost Qırğız və Tacikistan Respublikasından gəlmiş kursantlar da var. Onlar burada sahib olduğu bilik və bacarıqları gələcəkdə öz ölkələrinin müdafiə və milli təhlükəsizlik sahəsində tətbiq etməklə yanaşı, dövlətlərimiz arasında dostluq və hərbi əməkdaşlıq körpülərini daha da möhkəmləndirəcəklər.

Cənab zabitlər, Azərbaycan Respublikasının qanunlarına, hərbi nizamnamələrin tələblərinə sadiq qalmalı, xalqımıza və dövlətimizə vicdanla, ləyaqətlə və nümunəvi şəkildə xidmət etməlisiniz. Qalib ölkə statusu qazanmış Vətənimizi müqəddəs əmanət olaraq gələcək nəsillərə ötürməlisiniz. Əminəm ki, etimadı doğruldacaq, bu istiqamətdə bütün var qüvvənizi səfərbər edəcəksiniz.

Bu əlamətdar gündə bir daha Azərbaycan Ordusunun hərbi təhsil sistemində çalışan bütün şəxsləri, leytenant rütbəsi ilə xidmətə başlayacaq bütün məzunlarımızı və onların ailə üzvlərini ürəkdən təbrik edirəm. Sizə Azərbaycanın gələcəyi, qüdrətli ordumuzun daha da güclənməsi, dövlətimizin milli müdafiə qabiliyyətinin daha da möhkəmləndirilməsi naminə məsul və şərəfli xidmətinizdə daimi uğurlar arzulayıram. Yolunuz açıq, gələcəyiniz aydın olsun!"

# Müdafiə Nazirliyinin rəhbər heyəti Baş Klinik Hospitalı ziyarət edib







*İyunun 25-də Müdafiə Nazirliyinin rəhbər heyəti 26 İyun – Silahlı Qüvvələr Günü və Azərbaycan Ordusunun yaradılmasının 108-ci ildönümü münasibətilə Baş Klinik Hospitalı ziyarət edib.*

Müdafiə Nazirliyi xəbər verir ki, ziyarət çərçivəsində əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hospitalın ərazisindəki abidəsi önünə gül dəstələri düzülüb, Ulu Öndərin xatirəsinə dərin hörmət və ehtiram nümayiş etdirilib.

Sonra müdafiə naziri general-polkovnik Zakir Həsənov hospitalın tibb personalı və burada müalicə olunan hərbi qulluqçularla görüşüb, onların müalicə prosesi və səhhəti ilə yaxından maraqlanıb.

Nazirliyin rəhbər heyəti hərbi qulluqçuların tezliklə sağlamlıqlarını bərpa edərək xidmət yerlərinə qayıtmalarını arzulayıb. Daha sonra şəxsi heyətə bayram sovqatları təqdim edilib.

Hospitalın peşəkar tibb kollektivinin hərbi qulluqçuların müayinə, müalicə və reabilitasiyasındakı səmərəli fəaliyyəti rəhbərlik tərəfindən yüksək qiymətləndirilib.

Müdafiə naziri hərbi qulluqçulara daha keyfiyyətli tibbi xidmət göstərilməsi barədə vəzifəli şəxslərə müvafiq tapşırıqlar verib.

Hospitalın kollektivi və müalicə olunan hərbi qulluqçular müəssisədə yaradılan yüksək şəraitə, göstərilən diqqət və qayğıkeşliyə görə Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlıqlarını bildiriblər.







# Azərbaycan Respublikası müdafiə nazirinin 26 İyun – Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətinə təbriki

Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər, matroslar, dövlət qulluqçuları və mülki işçilər!

Sizi 26 İyun – Silahlı Qüvvələr Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, Azərbaycan Respublikasının müdafiə qüdrətinin artırılması naminə müqəddəs və şərəfli xidmətinizdə hər birinizə uğurlar arzulayıram.

Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli ordu quruculuğu müstəqilliyini əldə edən ölkəmizdə tarixi varislik prinsipi əsasında müasir mərhələyə qədəm qoymuşdur. 26 iyun 1918-ci ildə yaradılan Əlahiddə Azərbaycan Korpusu Cümhuriyyət Ordusunun hüquqi bazasını təşkil etmişdir. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 1998-ci il mayın 22-də imzaladığı tarixi Fərmanla 1918-ci ildə Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün – 26 iyun Silahlı Qüvvələr Günü kimi respublikamızda hər il təntənəli şəkildə qeyd olunur.

Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu ordu quruculuğu sahəsində də uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev ölkəmizin müdafiə məsələlərini daima prioritet məsələ hesab etmişdir. Bu istiqamətdə atılan addımlar ölkədə həyata keçirilən islahatların əsas tərkib hissələrindəndir.

Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı parlaq qələbə və həyata keçirdiyi uğurlu antiterror əməliyyatı nəticəsində işğalda olan torpaqlarımız azad olunmuşdur. Ötən il Bakı şəhərində keçirilən 8 Noyabr – Zəfər Gününün beşinci ildönümünə həsr olunmuş təntənəli parad ölkəmizin hərbi qüdrətinin gündən-günə artırılmasının nəticəsi və dünyada nümayişidir.

2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin tarixi Sərəncamı işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı yenidənqurma, bərpa və abadlıq işlərinin aparılmasına böyük töhfədir.

Bu gün işğaldan azad olunmuş ərazilərdə Azərbaycan Ordusunun şəxsi heyəti Vətənimizin keşiyində ayıq-sayıq dayanaraq genişmiqyaslı bərpa-quruculuq işlərinin ən yüksək səviyyədə həyata keçirilməsinə, Böyük Qayıdışa öz layiqli töhfələrini verir. Əminəm ki, Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi Anda nizamnamələrə daim sadiq qalaraq döyüş və mənəvi-psixoloji hazırlığınızı gücləndirəcək, xidmətinizdə yeni uğurlar əldə etmək üçün səy və bacarıqlarınızı daha da artıracaqsınız.

Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olan Vətən övladlarının xatirəsini dərin hörmət və ehtiramla yad edirik. Şəhidlərimizin ailə üzvləri və sağlamlığını itirən döyüşçülərimiz, müharibə veteranları daima dövlətimiz tərəfindən diqqət mərkəzində saxlanılır. Ali Baş Komandan cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində onların sosial-məişət şəraitinin yaxşılaşdırılması, qayğı və problemlərinin həlli istiqamətində mühüm addımlar atılır. Şəhid hərbi qulluqçularımızın valideynlərini, ailə üzvlərini, Vətən uğrunda sağlamlığını itirən silahdaşlarımızı, əziz veteranları bayram münasibətilə təbrik edir, onlara ən xoş arzularımı çatdırıram.

Bir daha hər birinizi 26 İyun – Silahlı Qüvvələr Günü münasibətilə ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür, Vətənə, müstəqilliyi əbədi, dönməz olan Azərbaycan dövlətinə şərəfli xidmətinizdə uğurlar arzulayıram.

**General-polkovnik**
**Zakir Həsənov**
**Azərbaycan Respublikasının müdafiə naziri**

# Azərbaycan heyəti "Anadolu Qartalı-2026" beynəlxalq təlimində iştirak edir



Türkiyə Respublikasının Konya şəhərində yerləşən aviabazada hərbi qulluqçularımızın iştirakı ilə "Anadolu Qartalı - 2026" beynəlxalq taktiki-uçuş təlimi keçirilir.

Müdafiə Nazirliyi xəbər verir ki, təlimə Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) uçuş və texniki heyəti, həmçinin Su-25 hücum təyyarələri cəlb olunub.

Əvvəlcə iştirakçılara təlimin məqsədi, keçiriləcəyi ərazi, müxtəlif mərhələlər üzrə icra olunacaq tapşırıqlar və təhlükəsizlik qaydaları barədə ətraflı məlumat verilib.

Hərbi pilotlarımız təlimin planına uyğun olaraq mərhələlər üzrə qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlib, yüksək peşəkarlıq nümayiş etdiriblər.

Qeyd edək ki, təlimin əsas məqsədi iştirakçı ölkələrin HHQ-ləri arasında qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsi, təcrübə mübadiləsinin aparılması və birgə əməliyyat imkanlarının genişləndirilməsidir.



# Müdafiə Nazirliyinin rəhbər heyəti Fəxri xiyaban, Zəfər parkı və Hərbi Memorial Məzarlığı ziyarət edib





26 İyun - Silahlı Qüvvələr Günü və Azərbaycan Ordusunun yaradılmasının 108-ci ildönümü münasibətilə Müdafiə Nazirliyinin rəhbər heyəti və digər vəzifəli şəxsləri Ümummilli Lider Heydər Əliyevin məzarını və Zəfər parkını ziyarət edib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti əvvəlcə Fəxri xiyabanda Ümummilli Liderin abidəsi önünə gül çələngi qoyub, xatirəsinə dərin hörmət və ehtiram nümayiş etdirib.

Müdafiə Nazirliyi xəbər verir ki, nazirliyin rəhbərliyi görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət edərək, üzərinə tər qızılgüllər düzüb, ruhuna ehtiram göstərib.

Sonra fəxri qarovulun iştirakı ilə Zəfər parkı və Hərbi Memorial Məzarlıq ziyarət olunub, abidələrin önünə əklillər qoyularaq şəhidlərimizin xatirəsi yad edilib.







## Müdafiə Nazirliyinin hərbi qulluqçularına ali hərbi rütbələr təqdim edilib

Müdafiə naziri general-polkovnik Zakir Həsənov iyunun 26-da Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən ali hərbi rütbələr verilən hərbi qulluqçularla görüşüb.

Müdafiə Nazirliyi xəbər verir ki, tədbirdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına "general-mayor" ali hərbi rütbəsinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 25 iyun 2026-cı il tarixli Sərəncamı və müdafiə nazirinin müvafiq əmri oxunduqdan sonra zabitlərə ali hərbi rütbələr təqdim edilib.



Ali Baş Komandanın təbriklərini hərbi qulluqçulara çatdıran general-polkovnik Z.Həsənov onlara gələcək xidmətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini çatdırıb.

Təltif olunan zabitlər isə öz növbələrində göstərilən etimada görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər, bu etimadı doğruldacaqlarına əminliklərini ifadə ediblər.

## Türkiyə Milli Müdafiə Nazirliyi: Azərbaycanla hər zaman bir ürək, bir yumruq olacağıq

Azərbaycanla hər zaman bir ürək, bir yumruq olacağıq.

AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyinin 26 İyun – Azərbaycan Silahlı Qüvvələri Günü münasibətilə yaydığı paylaşımında bildirilib.

Qardaş ölkənin müdafiə qurumu Azərbaycan Silahlı Qüvvələrini yaradılmasının 108-ci ildönümü münasibətilə təbrik edib.

"Qardaş Azərbaycanın təhlükəsizliyi və əmin-amanlığının keşiyində gecə-gündüz dayanan qəhrəman Azərbaycan Silahlı Qüvvələrini salamlayırıq", – deyə paylaşımda qeyd olunub.

## Türkiyənin Milli Müdafiə Nazirliyi "Üçlü Qartal" beynəlxalq təlimindən görüntülər paylaşıb

Türkiyənin Milli Müdafiə Nazirliyi Azərbaycan və Misir Hərbi Hava Qüvvələrinin (HHQ) iştirak etdiyi "Üçlü Qartal" beynəlxalq təlimindən görüntülər paylaşıb.

AZƏRTAC xəbər verir ki, təlimdə Türkiyə HHQ-nin təyyarələri ilə yanaşı, Azərbaycan HHQ-nin iki Su-25 və Misir HHQ-nin beş F-16 təyyarəsi iştirak edir.

"Ölkələrimiz təlim proqramı çərçivəsində yeni texniki və taktiki yeniliklər tətbiq edərək və birgə hava əməliyyatları bacarıqlarını təkmilləşdirərək əməliyyat imkanlarını artırır", - deyə Türkiyənin Müdafiə Nazirliyi qeyd edib.

# Hərbi qulluqçuların sağlamlığı daim diqqət mərkəzindədir







Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində şəxsi heyətin xidməti və sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər uğurla davam etdirilir.

Müdafiə Nazirliyi xəbər verir ki, 26 İyun - Silahlı Qüvvələr Günündə Müdafiə Nazirliyinin rəhbər heyəti yeni istifadəyə verilən idman zalında və Baş Klinik Hospitalda təcili tibbi yardım bölməsində yaradılan şəraitlə tanış olub.

Müdafiə naziri general-polkovnik Zakir Həsənova məruzə edilib ki, müasir tələblərə cavab verən idman zalı hərbi qulluqçuların fiziki hazırlığının və dözümlülüyünün yüksəldilməsi üçün zəruri olan bütün alət və avadanlıqlarla təchiz olunub.

Sonra Müdafiə Nazirliyinin Baş Klinik Hospitalının Təcili tibbi yardım bölməsində olan rəhbər heyətə yeni istifadəyə verilmiş təcili tibbi yardım avtomobilləri və bölmədə olan tibbi avadanlıqlar barədə məlumat verilib.

Bildirilib ki, bu avtomobillər təxliyə olunan hərbi qulluqçulara ilkin tibbi yardımın göstərilməsi üçün ən müasir avadanlıqlarla təmin edilib.

Bu da hərbçilərə göstərilən təcili və təxirəsalınmaz tibbi yardımın keyfiyyətinin artırılmasına xidmət edir.

# Müzəffər Komandanım, qalib ordum, azad yurdum var!

(Əvvəli 1-ci səhifədə)

### Ulu Öndər Heydər Əliyev və ordu quruculuğu prosesi

Heç şübhəsiz, bugünkü 108 yaşlı, qüdrətli və müasir Azərbaycan Ordusunun təməli xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin 1969-cu ildə hakimiyyətə gəlişindən sonra onun müstəsna xidmətləri sayəsində ölkəmizdə hərbi kadrların hazırlanması prosesinə başlanıldı. Dahi Şəxsiyyət Heydər Əliyevin rəhbərliyi ilə ordu quruculuğu sahəsində aparılan işlər ölkəmizdə mütəşəkkil, qüdrətli ordu yaratmağa imkan verdi, onun gələcəkdə daha da möhkəmlənməsi üçün əsaslı zəmin yaratdı.





Ulu Öndər 1971-ci ildə böyük zəhmətlər bahasına Azərbaycanda hərbi kadrlar hazırlayan məktəbin - görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin adını daşıyan Hərbi Liseyin yaradılmasına nail oldu. Sözügedən məktəbin fəaliyyəti Azərbaycanda hərb sənətinə marağın güclənməsinə və zabit kadrlarının hazırlanmasına gətirib çıxardı. Əbədiyaşar Ali Baş Komandan sayəsində azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərində oxuması, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul olunması mümkün oldu.

Ötən əsrin 90-cı illəri ölkəmiz üçün çox ağır keçdi, müstəqilliyimizi itirmə təhlükəsi ilə üz-üzə qaldıq. Müstəqilliyin ilk illərində ölkəmizə rəhbərlik edənlər Ermənistanın torpaqlarımızı işğal etdiyi bir vaxtda ordu quruculuğu kimi vacib və məsuliyyətli işin öhdəsindən gələ bilmədilər. Həmin dövrdə nizami ordudan əsər-əlamət yox idi. Müxtəlif hərbi dəstələr ayrı-ayrı qüvvələr tərəfindən idarə olunurdu. Bundan istifadə edən düşmənin torpaqlarımıza təcavüzü getdikcə daha geniş miqyas alırdı. Belə bir ağır vaxtda xalqın çağırışı ilə yenidən siyasi hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev başıpozuq silahlı dəstələri ləğv edərək nizami ordu quruculuğu prosesinə start verdi. Bu proses Azərbaycan Milli Ordusunun formalaşmasında yeni mərhələ oldu. 1994-cü il mayın 12-də Ermənistan-Azərbaycan hərbi münaqişəsində atəşkəs haqqında müqavilə imzalandıqdan sonra Azərbaycan Silahlı Qüvvələrinin formalaşması daha da sürətləndi. Həyata keçirilən uğurlu siyasət nəticəsində Silahlı Qüvvələrin maddi-texniki təminatının yaxşılaşdırılmasına, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılmasına və döyüş ruhunun yüksəldilməsinə xüsusi diqqət ayrıldı.



Bu diqqətin də bariz nümunələrindən biri də Ulu Öndər Heydər Əliyevin 22 may 1998-ci il tarixli Fərmanına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 İyun Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü kimi elan olunması oldu.

Ümummilli Lider hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədilə 1999-cu il fevralın 20-də Hərbi Akademiyanın yaradılması haqqında Fərman imzaladı. Akademiyanın təsis olunması hərb sahəsində milli kadr ehtiyatının formalaşması prosesinin keyfiyyət etibarilə yeni inkişaf mərhələsi oldu. 2001-ci il 20 avqust tarixli Fərmanı ilə Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən məktəblər müvafiq olaraq Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırıldı.

1990-cı illərin ortalarından başlayaraq Azərbaycanın NATO ilə sıx və səmərəli əməkdaşlığı ordu quruculuğu prosesinin təkmilləşdirilməsinə, Silahlı Qüvvələrimizin modernləşdirilməsinə, müasir standartlara uyğunlaşdırılmasına səbəb oldu. Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində 1994-cü ilin əvvəllərində Azərbaycan NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramına, bu əməkdaşlığın davamı olaraq 1996-cı ildə "Planlaşdırma və analiz prosesi" proqramına, 2001-ci ildə isə "Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı"na qoşuldu. İl ərzində 2 mindən çox Azərbaycan hərbçisi NATO proqramlarında və digər ikitərəfli əməkdaşlıq proqramlarında iştirak edərək ən son hərbi yenilikləri mənimsədi. Beynəlxalq sülhməramlı qüvvələrin tərkibində Kosovoda, Əfqanıstanda və İraqda zəngin təcrübə qazanan və öz standartlarını NATO standartlarına uyğunlaşdıran Azərbaycan Ordusu modern orduya çevrildi. Ulu Öndər Heydər Əliyev ölkəmizdə ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlər haqqında deyirdi: "1993-cü ilin sonlarından başlayaraq həyata keçirilmiş xüsusi tədbirlər nəticəsində milli ordu quruculuğu keyfiyyətcə yeni mərhələyə qədəm qoydu, qısa müddətdə vahid komandanlığa tabe olan nizami ordu formalaşdırıldı. Hazırda Azərbaycanın Silahlı Qüvvələri müasir hərbi texnika ilə təchiz edilmiş, möhkəm nizam-intizamı, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan bir ordudur. Milli Ordumuz müstəqil dövlətimizin ən böyük dayağı xalqımızın təhlükəsizliyinin və ölkəmizin ərazi bütövlüyünün təminatçısıdır".



### Qüdrətli Azərbaycan Ordusu, müasir hərbi sənaye kompleksi, yüksək sosial-məişət şəraiti

Ulu Öndərin ordu quruculuğu siyasətini uğurla davam və inkişaf etdirən Prezident, Ali Baş Komandan İlham Əliyevin hakimiyyətə gəlişindən sonra da ordu quruculuğu məsələsi, hərbi qulluqçularımızın peşəkarlığının artırılması, şəxsi heyətin döyüş ruhunun və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, Silahlı Qüvvələrimizin ən müasir silah və texnika ilə təchizatın olması daim ön planda saxlanıldı. Dövlətimizin başçısının ali diqqət və qayğısı sayəsində Azərbaycan Silahlı Qüvvələri qısa müddətdə regionun ən qüdrətli ordusuna çevrildi. Nüfuzlu "Global Fire Power" mərkəzinin 55 göstərici əsasında hazırladığı hesabatda Azərbaycan Ordusu Cənubi Qafqazda birinci, dünyada ilk 50 ordu sırasında yer aldı. Prezident İlham Əliyev bu haqda belə deyib: "1918-ci ildə Azərbaycan Ordusunun yaradılması haqqında qərar veriləndə, yəqin ki, Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları heç təsəvvür edə bilməzdilər ki, bu gün Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında olacaq. Bizim ordumuzun həm maddi-texniki təchizatı, həm də döyüş qabiliyyəti ən yüksək səviyyədədir. Biz bunu döyüş meydanında sübut edə bilmişik".

Dövlətimizin başçısının təşəbbüsü ilə ölkəmizdə hərbi sənaye kompleksi yaradıldı. Bu gün Azərbaycanda 1000-dən çox hərbi təyinatlı məhsul istehsal olunur, dünyanın aparıcı beynəlxalq sərgilərində hərbi məhsullarımız nümayiş etdirilir.

Ölkəmizin son illərdə dinamik inkişafı Silahlı Qüvvələrin büdcəsinin artması və nəticə etibarilə ordumuzun güclənməsi ilə müşayiət olunması dövlətimizin başçısının ordu quruculuğu ilə əlaqədar öz vədinə sadiq olduğunu təsdiq edir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində son illərdə ordumuzun döyüş qabiliyyəti daha da yüksəlmiş, maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilmişdir.



Bununla yanaşı, hərbi qulluqçularımızın sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Ordusunun hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" 2011-ci il 28 dekabr tarixli 569 nömrəli Fərmanına uyğun olaraq, Azərbaycan Ordusunun 20 il və daha çox qüsursuz xidmət etmiş 4167 nəfər hərbi qulluqçusu mənzillə təmin olunub. Hərbi qulluqçularımızın sosial-məişət şəraitinin yaxşılaşdırılması, dövlət vəsaiti hesabına mənzillə təmin edilməsi prosesi bundan sonra da davam etdiriləcək.

(Ardı 6-cı səhifədə)

# Müzəffər Komandanım, qalib ordum, azad yurdum var!

(Əvvəli 5-ci səhifədə)

### Qətiyyətli sərkərdə və qalib ordu

2016-cı ilin aprelin ilk günlərində Ermənistan ordusunun təxribatlarına cavab olaraq, Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Tərtər rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarəti altına keçdi. Azərbaycan Ordusu Aprel döyüşləri ilə xalqımıza yenidən qələbə sevinci yaşatdı, torpaqlarımızın işğaldan azad olunacağı günün uzaqda olmadığı əminliyini verdi.





Aprel döyüşlərindən iki il sonra Azərbaycan Ordusunun daha bir uğuru - 2018-ci ilin mayında Günnüt zəfəri ilə qazanıldı. Bu uğurlu əməliyyat nəticəsində Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi və Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilərək dövlət sərhədi boyunca əlverişli mövqelər Azərbaycan Ordusunun nəzarətinə keçdi. Beləliklə, Əlahiddə Ümumqoşun Ordunun müdafiə zolağının ön xəttinin dövlət sərhədi boyu əlverişli mövqelərə irəli çəkilməsi əməliyyatı uğurla nəticələndi, qarşıya qoyulan məqsədə nail olundu.

Bu döyüş əməliyyatlarından sonra Ali Baş Komandanın tapşırığına əsasən, ordumuzun döyüş qabiliyyətinin artırılması istiqamətində tədbirlər həyata keçirildi. Bu tədbirlərin əsasını da taktiki təlimlər təşkil edirdi. Keçirilən təlimlərdə hərbi qulluqçularımızın yüksək peşəkarlıq nümayiş etdirməsi bir amala xidmət edirdi - Ali Baş Komandanın döyüş əmri ilə işğal altında olan torpaqlarımızı azad etmək.

Və həmin tarixi gün yetişdi. 2020-ci ilin 27 sentyabr təqvimi. Saat 06:00 radələrində Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlardan, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutdu. Düşmən tərəfindən yaşayış məntəqələrimizin atəşə tutulması nəticəsində mülki əhali arasında həlak olan və yaralananlar oldu. Mülki infrastruktur obyektlərimizə ciddi ziyan dəydi.

Azərbaycan Ordusunun ön xətt bölmələri düşmənin bu təxribatının qarşısını almaq və qoşunların qarşıdurma xəttinə yaxın zonalarda yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əks-hücum əməliyyatına başladı. Döyüşlərdə bir addım da geri çəkilməyən Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbə vuraraq, 44 gün ərzində işğal altında olan torpaqlarımızı azad edərək tarixi nailiyyətə imza atdı.

İkinci Qarabağ müharibəsi zamanı Azərbaycan əsgəri əsl vətənpərvərlik ruhu nümayiş etdirdi. Düşməndən fərqli olaraq Azərbaycan Ordusunda bir dənə də fərari olmadı. Yaralı hərbi qulluqçularımız hospitallarda, xəstəxanalarda həkimlərdən xahiş edirdilər ki, bizi tezliklə sağaldın, döyüş meydanına qayıdaq və öz missiyamızı başa vuraq.

Düşmənin tam məğlubiyyəti ilə nəticələnən 44 günlük Vətən müharibəsi noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidentinin münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə üçtərəfli Bəyanat imzalamaları ilə başa çatdı. Bəyanata uyğun olaraq, noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonları Azərbaycana təhvil verildi. Düşmənin kapitulyasiyası rəşadətli Azərbaycan Ordusunun gücü hesabına əldə olunmuş nəticədir. Qəhrəman şəhidlərimizin qanı-canı, hərbçilərimizin şücaəti və rəşadəti hesabına bütün dünya Azərbaycanın şanlı qələbəsinin şahidi oldu.

Dekabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Bakıda Şanlı Qələbəyə həsr olunan möhtəşəm Zəfər paradı keçirildi. Dövlətimizin başçısının 2018-ci ildə keçirilən paradda dediyi kimi, düşmənin ələ keçirilən silah-sursat və texnikası ilə yanaşı, işğaldan azad olunan ərazilərimizdə qaldırılan bayraqlarımız da Zəfər paradında nümayiş etdirildi.

Aparıcı Qərb mətbu orqanlarında, habelə ABŞ-ın Milli Müharibə Kollecinin (National War College) və Seton Hall Universitetinin Diplomatiya və Beynəlxalq Münasibətlər Məktəbinin analitik nəşrlərində Azərbaycan Ordusunun hərbi taktikası öyrənilərkən belə, qənaətə gəlinib ki, ordumuzun qarşısında hətta dünyanın aparıcı ölkəsi olsaydı belə onun da heç bir şansı olmayacaqdı. İkinci Qarabağ müharibəsi zamanı istifadə olunan döyüş taktikası dünya hərb tarixində yenilik hesab olunur və müvafiq ali hərbi məktəblərin dərsliklərinə salınaraq öyrənilir. ABŞ Hərbi Akademiyası və Pentaqonun rəsmiləri Azərbaycan Ordusunun hərbi əməliyyatlarının öyrənilməsi zərurətini qeyd edirlər.

44 günlük Vətən müharibəsi zamanı qazanılmış təcrübə çevik və sürətli manevrə malik, yüksək dağlıq və çətin şəraitdə döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirə biləcək yeni birləşmələrin yaradılması zərurətini ortaya qoydu. Məhz bu zərurət Quru Qoşunlarının Əməliyyat (Komando) hərbi hissələrinin yaradılmasını aktuallaşdırdı. Buna görə də Azərbaycan Respublikası Prezidentinin tapşırığı ilə ordumuzda yeni təyinatlı Komando hərbi hissəsi yaradıldı.





2021-ci il dekabrın 24-də Müzəffər Ali Baş Komandan İlham Əliyev Xocavənd rayonunun Hadrut qəsəbəsində Komando hərbi hissəsinin açılış mərasimində demişdir: "Komando briqadasının yaradılması bizim üçün yenilikdir. Bir yox, iki yox, bir çox Komando briqadaları artıq Azərbaycanda yaradılır və bu briqadalar istənilən hərbi vəzifəni icra etməyə qadir olacaqlar. Yüksək təlim keçmiş, yüksək iradə nümayiş etdirmiş və Vətən uğrunda özlərini fəda etməyə hazır olan övladlarımız bu briqadalarda xidmət edəcəklər. Bu, bizim ordumuzun gücünü böyük dərəcədə artıracaq. Bir daha demək istəyirəm ki, belə briqadalar çox olacaq, minlərlə hərbçimiz bu briqadalarda xidmət edəcəklər. Beləliklə, Azərbaycan Ordusu bundan sonra da öz peşəkarlığını və yüksək mənəvi ruhunu qoruyacaqdır".

Öz məkrli niyyətindən geri qalmayan düşmən Azərbaycanın Qarabağ bölgəsində bir sıra genişmiqyaslı hərbi təxribatlar və terror hücumları törətdi. Bütün bu təxribatların qarşısının alınması, üçtərəfli Bəyanatın müddəalarının icrasının təmin olunması, Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə 2023-cü ilin 19-20 sentyabr tarixlərində bölgədə antiterror əməliyyatı həyata keçirildi. Əməliyyat çərçivəsində ordumuzun digər bölmələri kimi, yeni yaradılan Komando bölmələri də öz üzərinə düşən missiyanı layiqincə yerinə yetirərək göstərilən inam və etimadı doğrultdu. Əməliyyat çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin ön xətt və dərinlikdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi təyinatlı obyektləri yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarıldı. Cəmi 23 saat 43 dəqiqə ərzində erməni separatçıları ağ bayraq qaldırmağa məcbur oldular. Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciətini nəzərə alaraq, tam atəşkəs haqqında razılaşma əldə olundu və 2023-cü il sentyabrın 20-də saat 13:00-da antiterror əməliyyatı dayandırıldı.

Artıq müharibə başa çatıb. Bu gün azad edilmiş torpaqlarımızda həyat yenidən canlanır, geniş bərpa-quruculuq işləri aparılır. İllərlə Vətən həsrəti ilə alışıb-yanan həmvətənlərimiz doğma yurd-yuvalarına qayıdırlar. Tarix yazan qalib Azərbaycan Ordusu əldə etdiyi Zəfərlə kifayətlənməyərək döyüş hazırlığını durmadan artırır, ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin və təhlükəsizliyinin təminatçısına çevrilir. Ordumuzun şəxsi heyəti isə Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi Anda və nizamnamələrə sadiq qalaraq Böyük Qayıdışa layiqli töhfələr verir. Əminik ki, Azərbaycan Ordusu bundan sonra da Müzəffər Ali Baş Komandanın əmr və tapşırıqlarını şərəflə yerinə yetirəcək, xalqımızın qürur mənbəyi olaraq dövlətimizin qüdrətini artıracaqdır.

Məqaləmi Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandanın 26 İyun - Silahlı Qüvvələr Günü ilə bağlı fikirləriylə yekunlaşdırıram: "İyunun 26-sı Silahlı Qüvvələr Günüdür. Bu günü biz hər il təntənə ilə qeyd edirik. Müxtəlif tədbirlər keçirilirdi. Hər il 26 iyun tarixində hərbçilərlə görüşlər əsnasında mən deyirdim ki, gün gələcək biz öz doğma torpağımıza qayıdacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik. Deyirdim ki, əgər bu, danışıqlar yolu ilə mümkün olmayacaqsa, məsələni hərbi yolla həll edəcəyik. Belə də oldu. Uzun illər davam edən danışıqlar heç bir nəticə vermədi və Azərbaycan öz ərazi bütövlüyünü, tarixi ədaləti, beynəlxalq hüququ döyüş meydanında təmin etmişdir".

**Baş leytenant**
**Elçin İMANOV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunda Silahlı Qüvvələr Gününə həsr edilmiş silsilə tədbirlər keçirildi



Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində Silahlı Qüvvələrin yaranmasının 108-ci ildönümü qeyd olundu. Mərkəzin akt zalında baş tutan tədbirdə zabitlər, müəllimlər, kursantlar iştirak etdilər.

Ulu Öndər Heydər Əliyevin və Vətənimizin azadlığı, ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə canlarını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra tədbir açıq elan olundu.

Əvvəlcə Təlim və Tədris Mərkəzinin rəis müavini polkovnik Qardaşağa Cavadov Milli Müdafiə Universitetinin rektoru general-mayor Gündüz Əbdülovun Silahlı Qüvvələr Günü ilə bağlı ünvanlandığı təbriki şəxsi heyətə çatdırdı.

Tədbirdə çıxış edən Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinin rəisi, Vətən Müharibəsi Qəhrəmanı polkovnik Nizami Mövlanov dedi ki, 108 il bundan öncə ulu babalarımız Azərbaycan Xalq Cümhuriyyətini elan edib. Beləliklə, Şərqin ilk müsəlman demokratik dövlətini qurublar. Müstəqil dövlətimizin mövcudluğunu istəməyən bolşevik-daşnak qüvvələri Azərbaycan dinc əhalisinə qarşı qırğınlar törədirdi. O zaman yeni elan olunmuş dövlətin müdafiəsi üçün Azərbaycan Ordusunun yaradılması qarşıda duran ən ümdə vəzifə idi. Bu məqsədlə Gəncə şəhərində ilk Əlahiddə ordu korpusun yaradılması barədə hökumətin qərarı oldu. Bölgədə iqtisadi-siyasi durum olduqca çətin idi. Bolşevik və erməni-daşnak qüvvələri Azərbaycanın demək olar ki, bütün bölgələrində fəallaşırdılar. Onlar müstəqil Azərbaycanın mövcudluğuna son qoymaq istəyirdilər. Həmin dövrdə Azərbaycan Ordusunun bölmələri düşmən təxribatlarına qarşı mübarizə aparsalar da, dövrün müasir silhları ilə təchiz edilmiş silahlı dəstələrə qarşı sayca və döyüş təminatı baxımından qat-qat zəif ordumuzun bölmələri inadkarlıqla döyüşdülər. Cəmi 23 ay Azərbaycan Xalq Cümhuriyyəti yaşaya bildi. Bolşevik və erməni-daşnak silahlı dəstələri müstəqil Azərbaycan Xalq Cümhuriyyətini devirərək keçmiş sovetlər birliyinə daxil etdi. Xalqımız bu birliyin tərkibində 70 il yaşamalı oldu. Lakin xalqın vətənpərvər ziyalıları bu illər ərzində davamlı mübarizələr apardılar.

1991-ci ildə Azərbaycan xalqı gərgin mübarizədən sonra tarixi, əbədi müstəqilliyi qazandı. Həmin illər xalqımız və dövlətimiz üçün ən ağır illər oldu. Azərbaycanın ərazi bütövlüyünə qarşı yönəlmiş erməni təcavüzü daha geniş xarakter almaqda idi. Xarici havadarlardan hərbi dəstək alan Ermənistan ölkəmizin 20 faiz torpaqlarını işğal etdi. Bir milyondan artıq soydaşımız yerindən-yurdundan didərgin salındı. Tarixin bu ağır dönəmində xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyev cəbhədə uzun müddətli atəşkəs rejiminin əldə olunmasına nail oldu. Uzaqgörən siyasi xadim Heydər Əliyev ölkə daxilində baş qaldıran hərc-mərcliyin aradan qaldırması, ordu quruculuğunun və dövlətçiliyinin möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atdı.



Müstəqilliyimizin ilk illərində yaradılmış ordumuz özünü müdafiə və könüllü dəstələrdən ibarət idi. Onlar vahid komandanlığa tabe olmurdular. Ulu Öndər Heydər Əliyev ordu quruculuğunda böyük islahatlar aparmağa başladı. İlk olaraq könüllü özünü müdafiə dəstələri buraxıldı. Vahid komandanlıq altında idarə olunan ordu modelini formalaşdırdı. Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ordu quruculuğuna ciddi önəm verdi. Ordunun arsenalına ən müasir silah və döyüş texnikalar aldı. Düşmən işğalı altında olan torpaqları azad etmək üçün ordunun təchizatını yeniləməklə artırdı.

Polkovnik Nizami Mövlanov onu da qeyd etdi ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev 2020-ci il sentyabrın 27-də düşmənin təxribatlarının qarşısını almaq məqsədilə orduya əks-hücum əmri verdi. Bununla da ordumuzun bölmələri qısa müddətdə düşmənin təmas xəttini yardı. Düşmən ordusu darmadağın edildi, 44 gün ərzində Ermənistan kapitulyasiya aktını imzalamağa məcbur oldu. Bununla da Azərbaycan Ordusu tarixin ən böyük qələbəsini qazandı.

Tədbirdə Milli Müdafiə Universitetinin rektorunun və Təlim və Tədris Mərkəzi rəisinin bayram əmrləri oxundu. Fərqlənən hərbi qulluqçulara və mülki işçilərə Fəxri fərmanlar verildi, təşəkkürlər elan edildi.

Daha sonra 26 İyun – Silahlı Qüvvələr Gününə həsr edilmiş qısametrajlı film nümayiş olundu.

Tədbir Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı heyətinin ifasında vətənpərvərlik mahnıları ilə başa çatdı.

**Bəxtiyar ƏLİYEV**
**“Azərbaycan Ordusu”**



Azərbaycan Hərb Tarixi Muzeyində “26 İyun Silahlı Qüvvələr Günü: tarixi yol, müzəffər ordu, şanlı zəfər” adlı tədbir keçirildi.

Tədbirdə Azərbaycan Hərb Tarixi Muzeyinin əməkdaşları, Milli Müdafiə Universitetinin Bakı Hərbi Kollecinin kursantları, Hərbi Dəniz Qüvvələrinin və Hərbi polisin hərbi qulluqçuları, eləcə də digər qonaqlar iştirak ediblər.



Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətən uğrunda canından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Tədbiri giriş sözü ilə açan Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi, ehtiyatda olan polkovnik Elşad Pənahov Silahlı Qüvvələr Gününün xalqımızın hərb tarixində xüsusi yer tutduğunu bildirdi. O qeyd etdi ki, Azərbaycan Ordusunun formalaşması və inkişafı dövlətçilik tariximizin mühüm səhifələrindən biridir. Natiq həmçinin vurğuladı ki, Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə nizami ordu quruculuğu istiqamətində ardıcıl tədbirlər həyata keçirildi, hərbi qulluqçuların sosial-məişət şəraiti yaxşılaşdırıldı, peşəkar kadr hazırlığına xüsusi diqqət yetirildi. Bildirildi ki, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu regionun ən güclü ordularından birinə çevrilib, müasir silah və texnika ilə təchiz olunaraq yüksək döyüş qabiliyyətinə malik qüvvə kimi formalaşıb.

E.Pənahov çıxışında Vətən müharibəsində qazanılan tarixi Qələbənin Azərbaycan əsgərinin qəhrəmanlığı, xalqın birliyi və dövlət rəhbərliyinin qətiyyətli siyasətinin nəticəsi olduğunu diqqətə çatdırdı. O qeyd etdi ki, 44 günlük Vətən müharibəsi zamanı Ordumuz işğal altında olan torpaqlarımızı azad edərək Azərbaycanın ərazi bütövlüyünü bərpa edib və dünya hərb tarixinə yeni döyüş nümunəsi təqdim edib.

Muzey rəisinin çıxışı yekunlaşdıqdan sonra 26 İyun - Silahlı Qüvvələr Gününə həsr olunmuş qısametrajlı film nümayiş olundu.

Sonra Azərbaycan Hərb Tarixi Muzeyinin elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, professor Hacı Həsənov çıxış edərək Azərbaycan Silahlı Qüvvələrinin keçdiyi şərəfli inkişaf yolundan danışdı. O qeyd etdi ki, 1918-ci ildə yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin milli ordusu müasir Azərbaycan Ordusunun təməlini təşkil edir. Professor həmçinin vurğuladı ki, Azərbaycan Ordusu tarix boyu xalqın milli maraqlarının qorunmasında mühüm rol oynayıb, müstəqillik illərində həyata keçirilən islahatlar isə onun güclənməsinə və peşəkar hərbi qüvvəyə çevrilməsinə şərait yaradıb. H.Həsənov bildirdi ki, Vətən müharibəsində əldə olunan Zəfər Azərbaycan hərb tarixinin ən parlaq səhifələrindən biri olmaqla yanaşı, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi baxımından da böyük əhəmiyyət daşıyır.

Tədbirdə çıxış edən Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Kərim Rzayev də Silahlı Qüvvələr Gününün əhəmiyyətini xüsusi vurğuladı. O qeyd etdi ki, Azərbaycan əsgəri hər zaman xalqının ona olan etimadını doğruldub, Vətənə sədaqət nümunəsi göstərib. K.Rzayev ölkəmizdə hərbi qulluqçuların sosial rifahının yüksəldilməsi, onların xidmət və məişət şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər dövlətin orduya göstərdiyi yüksək diqqət və qayğının bariz nümunəsi olduğunu bildirdi. Natiq rəşadətli Ordumuzun qazandığı qələbələrin hər bir azərbaycanlı üçün qürur mənbəyi olduğunu vurğuladı.

Tədbirdə çıxış edənlər Silahlı Qüvvələrin yaradılmasının 108-ci ildönümü münasibətilə hərbi qulluqçuları və tədbir iştirakçılarını təbrik edərək, Azərbaycan Ordusunun bundan sonra da dövlətimizin müstəqilliyinin və təhlükəsizliyinin etibarlı təminatçısı olaraq qalacağına ümidvar olduqlarını bildirdilər.

Tədbirin bədii hissəsində Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri tərəfindən vətənpərvərliyə həsr olunmuş musiqi nömrələri təqdim olundu. Səsləndirilən mahnılar iştirakçılar tərəfindən böyük maraqla qarşılandı, tədbirə xüsusi bayram ab-havası bəxş etdi.

Sonda tədbir iştirakçıları Silahlı Qüvvələr Gününün Azərbaycan xalqının milli qürur mənbəyi olduğunu vurğulayaraq, Ordumuzun şanlı tarixinin və qazandığı zəfərlərin gələcək nəsillərə çatdırılmasının vacibliyini qeyd etdilər.

**Hüsniyyə NƏSİROVA**
**“Azərbaycan Ordusu”**

# 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə hərbi yürüşlər keçirilib

İyunun 26-da Silahlı Qüvvələr Günü və Azərbaycan Ordusunun yaradılmasının 108-ci ildönümü münasibətilə paytaxtın müxtəlif küçə və prospektlərində hərbi orkestrlərin müşayiəti ilə yürüşlər keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Qeyd edək ki, yürüşlər aşağıdakı marşrutlar üzrə təşkil olunub:

- Heydər Əliyev Sarayı - Bülbül prospekti - Nizami Kino Mərkəzi - Neftçilər prospekti - Azadlıq meydanı – Dəniz Vağzalı;

- Şəhidlər xiyabanı – “Alov Qüllələri” Kompleksi – Çəmbərəkənd parkı - “İçərişəhər” metrostansiyası - Qala qapısı - Azərbaycan Dövlət Kukla teatrı - Azneft dairəsi - Bəhram Gur heykəli;

- Q.Musabəyov parkı - Əbdürrəhim bəy Haqverdiyev küçəsi - Hüseyn Cavid prospekti - Hüseyn Cavid parkı - Parlament prospekti - Şəhidlər xiyabanı;

- “Olimpik Star” İdman və Əyləncə Mərkəzi - Səməd Vurğun küçəsi - Zabitlər parkı - Bakı Dövlət Sirki - Heydər Əliyev Sarayı - İmadəddin Nəsimi heykəli - Neftçilər prospekti;

- Nəriman Nərimanov heykəli - Mərkəzi Park - Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı - Qış parkı - Heydər Əliyev sarayı - Azərbaycan Respublikasının Mərkəzi Bankı – “28 Mall” Ticarət Mərkəzi.



Hərbi qulluqçuların vətənpərvərlik ruhunda mahnıların sədası altında yürüşləri paytaxt sakinləri tərəfindən maraqla qarşılanıb.

* * *

Azərbaycan Ordusunun hərbi qulluqçuları hərbi orkestrin müşayiəti ilə Xankəndi şəhərinin mərkəzi küçələrində müəyyən olunan marşrut üzrə yürüş ediblər. Əllərində Azərbaycan bayraqları tutmuş vətəndaşlar hərbçilərin yürüşünü sevinc və qürur hissi ilə izləyərək alqışlayıblar. Hərbi yürüş bir daha ordumuzun gücünü, Azərbaycan xalqının birliyini və vətənpərvərlik ruhunu nümayiş etdirib.

* * *

Azərbaycan Ordusunun hərbi qulluqçuları hərbi orkestrin müşayiəti ilə Laçın şəhərinin mərkəzi küçələrində müəyyən olunan marşrutlar üzrə yürüş ediblər. Hərbi yürüş şəhərin mərkəzində yerləşən Bayraq meydanından başlayıb. Vətəndaşlar hərbçilərin yürüşünü sevinc və qürur hissi ilə izləyiblər.

* * *

Naxçıvan şəhərində təşkil edilən hərbi yürüş şəhərin Dilqəm Pişəvəri küçəsindən Heydər Əliyev prospektində yerləşən Zəfər Parkınadək davam edib. Tədbirdə Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları, gənclər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Yürüş iştirakçıları hərbi orkestrin müşayiəti ilə hərbi vətənpərvərlik mahnıları, eləcə də marşlar və şüarlar səsləndiriblər.

**AZƏRTAC-ın materialları əsasında**







## Müdafiə Nazirliyinin hərbi orkestri və Türkiyə Silahlı Qüvvələrinin Armoni orkestri konsert proqramı ilə çıxış ediblər





26 İyun – Silahlı Qüvvələr Günü münasibətilə Xankəndi şəhərində yerləşən Zəfər Parkında bayram tədbiri keçirilib.

Tədbir çərçivəsində Müdafiə Nazirliyinin hərbi orkestri Zəfər marşını ifa edib. Parkda səslənən marş bayram ab-havası yaradaraq, şəhər sakinlərinin böyük marağına səbəb olub. Sakinlər hərbçilərin ifasını alqışlarla qarşılayıb, dövlət rəmzlərinə və Azərbaycan Ordusuna hörmətlərini ifadə ediblər. Bayram tədbiri vətənpərvərlik ruhunun təbliği, Silahlı Qüvvələrə ehtiramın nümayişi baxımından xüsusi əhəmiyyət daşıyıb.

* * *

Ölkəmizdə səfərdə olan Türkiyə Silahlı Qüvvələrinin Armoni orkestri Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi İnstitutda 26 İyun – Silahlı Qüvvələr Günü münasibətilə keçirilən konsertdə çıxış edib.

Əvvəlcə Ulu Öndərlər Heydər Əliyev və Mustafa Kamal Atatürkün, eləcə də hər iki qardaş ölkənin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət himni və Türkiyə Respublikasının İstiqlal marşı səsləndirilib.

Konsert proqramında hərbi vətənpərvərlik mahnıları, müxtəlif marşlar, tanınmış Azərbaycan, türk və dünya bəstəkarlarının müasir və klassik əsərlərindən ibarət musiqi parçaları təqdim olunub.

**AZƏRTAC-ın materialları əsasında**



## “Azərbaycan Silahlı Qüvvələri hər zaman xalqımızın güvən mənbəyi olub”

Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının ildönümü münasibətilə Pekində mərasim keçirilib.

AZƏRTAC xəbər verir ki, Çin Silahlı Qüvvələrinin yüksəkvəzifəli şəxslərinin, xarici dövlətlərin Pekindəki hərbi attaşelərinin, diplomatların, bu ölkədə yaşayan azərbaycanlıların iştirak etdikləri tədbirdə əvvəlcə Azərbaycanın və Çinin Dövlət himnləri səslənib.

Ölkəmizin Çindəki hərbi attaşesi Teyfur Rüstəmov 108-ci ildönümünü qeyd etdiyimz Silahlı Qüvvələrimizin Azərbaycanın müstəqil dövlətçiliyinin ən möhkəm dayaqlarından biri olduğunu bildirib, böyük fədakarlıq göstərən ordumuzun öz Vətənini qorumaq yolunda həyatını qurban verən igidlərin timsalında xalqımızın iradəsini nümayiş etdirdiyini deyib.

“Bu gün 108-ci ildönümünü böyük qürur hissi ilə qeyd etdiyimiz Azərbaycan Silahlı Qüvvələrində vahid komandanlığın təmin edilməsi, nizami ordu quruculuğu prosesinin prioritet məsələ elan olunması xalqımızın Ümummilli Lideri Heydər Əliyevin bu istiqamətdə atdığı cəsarətli addımların nəticəsidir”, - deyən Teyfur Rüstəmov əlavə edib ki, Azərbaycan Silahlı Qüvvələri hər zaman xalqımızın güvən mənbəyi olub. 2020-ci ilin 44 günlük Vətən müharibəsi bunun ən bariz nümunəsidir. Prezident, Müzəffər Ali Baş Komandan, İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımız işğaldan azad edilib, Azərbaycan Silahlı Qüvvələri misilsiz qəhrəmanlıq göstərib və dünya tarixində öz uğuru və peşəkarlığı ilə yadda qalıb. Həmin dövrdə hər bir əsgər və zabit işğal olunmuş ərazimizin azad edilməsi uğrunda canını ortaya qoyub.

“Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu ordu quruculuğu sahəsində də uğurla davam etdirən Prezident İlham Əliyev ölkəmizin müdafiə məsələlərini daim prioritet məsələ hesab edib. Bu istiqamətdə atılan addımlar ölkədə həyata keçirilən islahatların əsas tərkib hissələrindəndir”, - deyən hərbi attaşe əlavə edib ki, bu gün Azərbaycan Silahlı Qüvvələri yalnız ölkəmizin müdafiəçisi deyil, həm də Qafqaz regionunda sülhün təminatçısıdır.

Polkovnik Teyfur Rüstəmov Azərbaycan Silahlı Qüvvələrinin sülhməramlı əməliyyatlarda fəal iştirak etməklə beynəlxalq təhlükəsizliyin və sülhün qorunmasına öz töhfəsini verdiyini vurğulayıb.

Hərbi attaşe Azərbaycan-Çin əməkdaşlığının bütün sahələrdə inkişaf etdiyini bildirib, tərəflər arasında müntəzəm olaraq qarşılıqlı səfərlər, təcrübə mübadilələri, eləcə də hərbi təhsil proqramları və müdafiə texnologiyalarının öyrənilməsi həyata keçirildiyini deyib.

Leytenant Qurbanzadə Fərid Rasim oğluna verilmiş MN № 0070811 nömrəli, leytenant Nağdalıyev Qurban Sadil oğluna verilmiş MN № 0070782 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Gizir Qurbanov Xəyal Hümmət oğluna verilmiş SQ № 0014738 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

| Redaktor | Telefon | Ünvanımız | Qəzetin hesabı | | Növbətçi | |
|---|---|---|---|---|---|---|
| mayor Ceyhun Cəfərli | Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçi (012) 404 76 22 | Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi | 2 saylı Xəzinədarlıq Kod: 200189 VÖEN: 1500444791 | “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz. | kapitan Fuad CƏFƏROV | Lisenziya № 361 Sifariş № 604 Nüsxə 3653 |